# Uca Allah bəzi əməlləri fərz etmişdir, onları zay etməyin. Bəzi hüdudlar qoymuşdur, onları aşmayın. Bəzi şeyləri isə haram buyurmuşdur, onları etməyin. Bəzi işlər barədə unutqanlıqdan deyil də, lakin sizə mərhəmət olaraq susmuşdur, elə isə onları araşdırmayın

Əbu Sələbə əl-Xuşəni Cursum bin Nəşir (Allah ondan razı olsun) Rəsulullahın (sallallahu aleyhi və səlləm) belə dediyini rəvayət edir: "Uca Allah bəzi əməlləri fərz etmişdir, onları zay etməyin. Bəzi hüdudlar qoymuşdur, onları aşmayın. Bəzi şeyləri isə haram buyurmuşdur, onları etməyin. Bəzi işlər barədə unutqanlıqdan deyil də, lakin sizə mərhəmət olaraq susmuşdur, elə isə onları araşdırmayın".

[قال النووي: حديث حسن] [رواه الدارقطني في سننه وغيره]

Peyğəmbər (sallallahu əleyhi va səlləm) xəbər verir ki, Allah bəzi şeyləri vacib və bəzi şeyləri isə fərz etmişdir. Onlara riayət edin və onları tərk etməklə və ya onlara səhlənkar yanaşmaqla onları zay etməyin. Allah sizə, Özünün razı qalmadığı şeylərdən çəkindirmək və saxlamaq üçün bəzi maneələr və qadağalar da qoymuşdur. Buna görə də şəriətin buyurduğundan artıq bir şey etməyin. Allah bəzi şeyləri haram etmişdir, onları işləməyin və onlara yaxınlaşmayın. Bunlardan başqa şeyləri isə qullarına mərhəmət olaraq tərk etmişdir və onlar barəsində susmuşdur. Ona görə də bu şeylər, əsli hökmündə halal olaraq qalır, bu səbəbdən onların hökmünü araşdırmayın.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee